# Bu seçki xalqın Prezident İlham Əliyevə dərin inamının növbəti təsdiqi olacaq

**"Azərbaycan Respublikasının Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə əsasən, dövlət başçısı növbədənkənar prezident seçkiləri elan edə bilər. Bu mənada 2024-cü il fevralın 7-nə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin müəyyən edilməsi dövlət başçısının konstitusion səlahiyyəti olmaqla yanaşı, hüquqi əsası mübahisə doğurmayan prosedurdur. Növbədənkənar seçkilərin zərurətinə gəlincə, aydındır ki, İlham Əliyevin Ali Baş Komandanlığı altında işğal və təcavüzə, habelə separatizmə son qoyulması ilə nəinki Azərbaycanda, bütövlükdə regionda yeni reallıq yaranıb".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, üç il əvvələ qədər "yeni müharibə və yeni torpaqlar" iddiaları ilə lərzəyə gələn bir region bu gün, nəhayət ki, xoş niyyət təzahürlərinə, humanizm dəyərlərini rəhbər tutan etimad quruculuğu istiqamətində razılığa şahidlik edir: "Qafqaz kimi mürəkkəb regionda, nə qədər gözlənilməz olsa da, artıq sülhün addım səsləri eşidilir. Daha doğrusu, qətiyyəti ilə işğala, təcavüzə, separatizmə son qoyub Azərbaycanı tarixinin ən güclü dövlətinə çevirən siyasi iradə indi də regionda sülhü bərqərar etməkdədir. Beləliklə, illər ərzində Azərbaycanı "rəngli inqilab"lar və "ərəb baharı"nın dağıdıcı təsirindən müdafiə etməyi bacaran İlham Əliyev indi də regionu yad ünsürlərin təşviqi ilə qütblərarası toqquşma nöqtəsi olmaqdan qoruyur".

Deputat əlavə edib ki, zəfərimizdən doğan yeni reallığın tələbləri ilə ötən dövrün tələbləri heç də bütün hallarda üst-üstə düşmür, hədəflərimiz də 3 il əvvəlkilərdən



fərqlənir: "2017-ci ildə start verilən və bizi böyük qələbələrə aparan islahatların yeni mərhələsində olduğu kimi, Prezident İlham Əliyev bu dəfə də islahatları zirvədən başlayır. Bu isə, əslində, siyasi mədəniyyətin zirvəsi deməkdir".

Bəhruz Məhərrəmov qeyd edib ki, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq bizim altı ali konstitusion niyyətimizdən biridir: "Biz real müstəqilliyimizin 30-cu ilində, nəhayət ki, bu ali niyyətlərimizə nail ola və bəyan edə bilirik ki, Azərbaycan bütün aspektlərdə müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü təmin etmiş dövlətdir və tariximizdə ilk dəfə beynəlxalq hüquqla tanınan ərazi bütövlüyümüz çərçivəsində seçki keçirməyə hazırlaşırıq. Bu mənada fevralın 7-nə müəyyənləşdirilən növbədənkənar prezident seçkiləri, əslində, bizim qürur tariximizin mühüm bir həlqəsi olacaq".

Deputatın sözlərinə görə, Ümummilli Lider Heydər Əliyev yalnız xalqa - ona canı-qanı ilə dəstək olmağa hazır olan milyonlara güvənərək müasir Azərbaycan dövlətini qurduğu kimi, İlham Əliyev də tam yeni Azərbaycanın quruculuğunda heç bir amilə yox, məhz xalqın etimadına güvənərək erkən seçkilərə gedir: "Bu, Liderin xalqına inamı, xalqın isə Prezidentinə olan etimadının ən ali göstəricisidir. Eyni zamanda xalq üçün fürsətdir ki, 20 ildir bizi qələbədən qələbəyə aparan, Azərbaycanı qalib dövlətə çevirən müzəffər Liderinə özünün minnətdarlığını çatdırsın. Çünki bu ölkəyə ən azı son 105 ildə xəyanətkarı da, acizi də, məğlubu, fərarisi də rəhbərlik edib, amma biz ilk dəfədir ki, bütün suveren ərazilərimizi əhatə edəcək seçkilərdə qalib sərkərdəyə səs verəcəyik. Bu, bir zamanlar çevrilişlə hakimiyyəti zəbt etmiş dairələrin, yaxud siyasi nihilistlərin, antimilli ünsürlərin qiymət verə biləcəyi məsələ deyil. Xalq yaxşı anlayır ki, bu siyasətin alternativi yoxdur və fevralın 7-də bunu bir daha dünyaya nümayiş etdirəcək".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*



Azərbaycan.- 2023.- 10 dekabr, № 270.- S.8.